# Antiterror tədbirləri tariximizə qızıl hərflərlə yazıldı

*Azərbaycan həmişə problemlərin sülh yolu ilə həllinə üstünlük verir. Bunun sübutu kimi Azərbaycan ərazisinin 20 faizinin Ermənistan tərəfindən işğal olunmasına baxmayaraq, 30 ilə yaxın müddətdə qarşı tərəflə danışıqlar aparmışdır.*

BMT-nin 4 məlum qətnaməsi ancaq kağız üzərində qaldı. Ermənistana hər hansı bir təzyiq göstərilmədi və müvafiq sanksiyalar tətbiq olunmadı. Əksinə, 1992-ci ildə ABŞ Konqresinin ermənipərəst nümayəndələrinin səyləri nəticəsində Azərbaycana qarşı sanksiyalar tətbiq edildi. Absurd bir vəziyyətdir ki, humanitar böhrana məruz qalan, bir milyondan artıq məcburi köçkünü olan, işğal edilmiş əraziləri tamamilə dağıdılan bir ölkə sanksiyalara məruz qalmışdır.



ABŞ Konqresində anti-Azərbaycan və antitürk siyasəti ilə seçilən, korrupsiya və rüşvətxorluğa bulaşmış senatorlar var.

Azərbaycan Prezidenti İlham Əliyev ADA Universitetinin təşkilatçılığı ilə Şuşa şəhərində keçirilən ümummilli lider Heydər Əliyevin 100 illiyinə həsr olunmuş "Böyük Avrasiya geosiyasətinin formalaşdırılması: keçmişdən bu günə və gələcəyə" mövzusunda dördüncü beynəlxalq konfransda korrupsioner siyasətçi Menendezin çirkin əməllərini ifşa edərək demişdir: "Əlbəttə, təəssüf edirik ki, erməni ailəsi olan senator Menendez hər zaman Azərbaycana hücum çəkir...".

Menendez rüşvətxorluq, korrupsiya və qəsdən fırıldaqçılığın bir neçə növü də daxil olmaqla 14 maddə üzrə cinayət məsuliyyətinə cəlb edilib. Onunla yanaşı, digər "siyasətçilər" də məhkəmə qarşısına çıxarılıb.

Bəzi Avropa ölkələri, beynəlxalq təşkilatlar sözdə işğalı pisləsələr də, yaranmış vəziyyətin danışıqlar yolu ilə həllini deyil, vaxtı uzatmaqla gələcəkdə Azərbaycanın işğalla barışmalı olacağını düşünürdülər. Tez-tez "münaqişənin hərbi həlli yoxdur" fikirlərini səsləndirdilər.

2019-cu ildən etibarən Ermənistan hərbi-siyasi rəhbərliyinin bir-birinin ardınca verdiyi təxribatçı bəyanatlar və atdığı addımlar isə danışıqlar prosesini məqsədyönlü şəkildə tamamilə pozmuşdu. Bununla Ermənistan bir daha özünün əsl məqsədinin mövcud status-kvonu möhkəmləndirməkdən və Azərbaycan ərazilərini ilhaq etməkdən ibarət olduğunu nümayiş etdirmişdir.

Təcavüzkar və hücum xarakterli milli strategiyası və hərbi doktrina, işğal edilmiş ərazilərdə qeyri-qanuni məskunlaşdırma siyasətini genişləndirməsi, "yeni ərazilər uğrunda yeni müharibə" çağırışı, mülki şəxslərdən ibarət könüllü dəstələr yaratmaq qərarı, 2020-ci ilin iyulunda Tovuz istiqamətində təxribat törətməsi, qoşunların təmas xəttində gərginliyi artırması, cəbhə xəttinə yaxın ərazilərdə ordu cəmləşdirməsi, böyük həcmdə silah-sursat toplaması Ermənistanın genişmiqyaslı hücuma hazırlaşdığını göstərirdi.

2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələri beynəlxalq hüquq normalarını yenidən kobud şəkildə pozaraq müxtəlif növ silahlardan, o cümlədən ağır artilleriyadan istifadə etməklə bir neçə istiqamətdən Azərbaycan Respublikasının yaşayış məntəqələrini və hərbi mövqelərini atəşə tutdu. Düşmənin törətdiyi növbəti hərbi təxribat nəticəsində mülki şəxslər və hərbçilər arasında ölən və yaralananlar oldu, ölkənin təhlükəsizliyinə qarşı real və potensial hərbi təhdidlərin qarşısının alınması üçün Silahlı Qüvvələrimizin bölmələri tərəfindən əks-hücum əməliyyatlarına başlandı.

İlk gündən Azərbaycan Ordusu tərəfindən bir neçə rayon və strateji əhəmiyyətli digər ərazilər işğaldan azad edildi. Rəşadətli və müzəffər Ordumuzun həyata keçirdiyi uğurlu hərbi əməliyyatlar nəticəsində Ermənistan silahlı qüvvələri darmadağın edilərək, canlı qüvvə və texnika sarıdan böyük itkilər verərək geri çəkilməyə məcbur oldular.

44 gün davam edən hərbi əməliyyatlar nəticəsində Ordumuzun bölmələri ümumilikdə 300-dən çox yaşayış məntəqəsini, həmçinin Ağdərə, Murovdağ və Zəngilan istiqamətində mühüm strateji yüksəklikləri işğaldan azad etdilər. Azərbaycanın qazandığı qələbələr, xüsusilə noyabrın 8-də Şuşanın azad edilməsi müharibənin taleyində həlledici rol oynadı, bununla da Ermənistan öz məğlubiyyətini etiraf etməyə məcbur oldu.

2020-ci il noyabrın 10-da Azərbaycan Respublikası Prezidentinin, Ermənistan Respublikası baş nazirinin və Rusiya Federasiyası Prezidentinin imzaladıqları üçtərəfli Bəyanata əsasən Ermənistan Kəlbəcər, Ağdam və Laçın rayonlarını Azərbaycana qaytardı.

Müharibədən sonra Azərbaycan dəfələrlə Ermənistan tərəfinə davamlı sülh üçün çağırışlar etsə də, düşmən ölkə hər dəfə danışıqlardan boyun qaçırır, bununla da kifayətlənməyərək suveren ərazimizdə silahlı təxribatlarını davam etdirirdi. Üçtərəfli Bəyanata zidd olaraq Ermənistan üç il ərzində silahlı qüvvələrini və texnikasını ərazilərimizdən çıxarmadı. Kapitulyasiya aktından sonra Azərbaycanın Qarabağ bölgəsində 10 mindən artıq Ermənistan silahlı qüvvələrinin birləşmələri və qeyri-qanuni erməni silahlı dəstələri mövcud idi. Azərbaycan ərazisində qanunsuz olaraq Ermənistan ordusuna məxsus yüzdən çox tank və zirehli nəqliyyat vasitələri, digər texnika yerləşdirilmişdir. Radioelektron mübarizə vasitələri, iki yüzdən çox top və artilleriya qurğuları, hava hücumuna qarşı ən müasir qurğular var idi.

İkinci Qarabağ müharibəsindən sonra məqsədyönlü şəkildə Azərbaycana qarşı terror aktları həyata keçirmək üçün 2021-ci ildə Ermənistanda istehsal olunan minalardan istifadə edilmişdir.

Azərbaycan Qarabağda gərginliyin aradan qaldırılması, birgəyaşayışı təmin edəcək reinteqrasiya prosesinin normal davam etməsi və məsələnin ikitərəfli danışıqlar yolu ilə həllini tapması üçün 3 il müddətində əlindən gələni etdi. Təəssüf ki, Azərbaycanın humanist çağırışlarına baxmayaraq, haylar yeni təxribatlar törətməklə məşğul idilər. Vəziyyət o həddə çatmışdı ki, Qarabağda separatçılar müstəqillik iddialarından əl çəkmir, özlərinin oyuncaq "prezident"lərini seçir, qondarma "parlament"ləri adından Azərbaycan dövlətinin əleyhinə bəyanatlar verirdilər. Son bir neçə ayda Qarabağ bölgəsindəki Ermənistan silahlı qüvvələrinin fəallaşması müşahidə olunurdu, Azərbaycan Ordusunun mövqelərinin müxtəlif çaplı silahlardan sistemli şəkildə atəşə tutulması, ərazilərimizin minalanması, döyüş mövqelərinin mühəndis-istehkam cəhətdən təkmilləşdirilməsi, eləcə də səngər və sığınacaqların sayının artırılması gərginliyə səbəb olmuşdu.

2023-cü il sentyabrın 19-da Qarabağ bölgəsindəki Ermənistan silahlı qüvvələri bir sıra genişmiqyaslı hərbi təxribatlar və terror törətdilər. Erməni kəşfiyyat-diversiya qrupları tərəfindən Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunda terror məqsədilə əvvəlcədən quraşdırılmış minaların partlaması nəticəsində mülki şəxslər, Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının hərbi qulluqçuları şəhid oldu və yaralandı. Bununla yanaşı, ordumuzun bölmələri minaatanlardan və müxtəlif çaplı atıcı silahlardan atəşə tutuldu. Nəticədə Azərbaycan ordusunun iki hərbi qulluqçusu yaralandı. Həmin gün Azərbaycanın Qarabağ bölgəsində qanunsuz yerləşdirilmiş erməni silahlı qüvvələrinin növbəti terror aktı nəticəsində Ağdam və Şuşa şəhərlərində müvafiq olaraq iki mülki şəxs həlak oldu. Qeyri-qanuni erməni silahlı birləşmələrinin döyüş mövqelərinin gücləndirilməsi və bölmələrinin yüksək döyüş hazırlığı səviyyəsinə gətirilməsi Azərbaycan ordusunun bölmələri tərəfindən təsbit edildi. Bütün bu təxribatların qarşısının alınması, üçtərəfli Bəyanatın müddəalarının icrasının təmin olunması, Azərbaycan Respublikasının Konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə bölgədə lokal xarakterli antiterror tədbirlərinə başlanıldı. Cəmi 23 saat 43 dəqiqə ərzində erməni separatçıları ağ bayraq qaldırmağa məcbur oldular. Qarabağın erməni sakinlərinin nümayəndələrinin Rusiya sülhməramlı kontingenti vasitəsilə müraciətini nəzərə alaraq tam atəşkəs haqqında razılaşma əldə olundu və 2023-cü il sentyabrın 20-də saat 13:00-da lokal xarakterli antiterror tədbirləri dayandırıldı. Razılaşmaya əsasən, Azərbaycan Respublikasının Qarabağ bölgəsində yerləşən Ermənistan silahlı qüvvələrinin birləşmələri, qeyri-qanuni erməni silahlı dəstələri silahı yerə qoymalı, döyüş mövqelərindən və hərbi postlardan çıxmalı və tam şəkildə tərk-silah olunmalı idi.

Dəfələrlə Azərbaycan nümayəndələri ilə görüşdən imtina edən Qarabağda yaşayan erməni icmasının nümayəndələri birgünlük antiterror tədbirlərindən sonra Yevlax şəhərində görüşməyə məcbur oldular. Görüşdə separatçı rejimin ləğvi, Qarabağda yaşayan erməni sakinlərinin reinteqrasiya məsələləri müzakirə edildi. Eyni zamanda Qarabağın erməni əhalisinə Azərbaycanın təklif etdiyi reinteqrasiya şərtləri ilə tanış olaraq, regionda qalıb-qalmamaq barədə müstəqil qərar vermək imkanları yaradıldı.

Sentyabrın 28-də Qarabağın separatçı rejiminin rəhbəri Samvel Şahramanyan qondarma rejimin ləğvi ilə bağlı sənəd imzaladı. Beləliklə, 24 saatdan az müddətdə həyata keçirilən antiterror tədbirləri nəticəsində Azərbaycan ərazisində qanunsuz yerləşən Ermənistan ordusu tam şəkildə tərk-silah edilərək ölkəni tərk etdi. Qarabağda qeyri-qanuni xunta rejimi ləğv edildi, separatçıların əsas rəhbərləri həbs olundu və Azərbaycan öz dövlət suverenliyini tam təmin etdi.

Xankəndi, Xocalı, Ağdərə, Xocavənd, Əskəranda üçrəngli bayrağımız yüksəldi, ərazi bütövlüyümüz, suverenliyimiz tam bərpa olundu.

2023-cü il noyabrın 8-də Xankəndi şəhərində Vətən müharibəsində əldə edilən Zəfərin 3-cü ildönümünə həsr olunan təntənəli hərbi paradın keçirilməsi Qələbəmizin möhtəşəmliyini göstərdi.

44 günlük müharibə və lokal antiterror tədbirləri zamanı xalqımız Müzəffər Ali Baş Komandan İlham Əliyevin ətrafında sıx birləşdi. Dünyanın hansı guşəsində yaşamasından, statusundan, siyasi mövqeyindən asılı olmayaraq, hər kəs Prezidentin yanında olduğunu bəyan etdi. Ölkədə fəaliyyət göstərən 23 siyasi partiya da Müzəffər Ali Baş Komandan İlham Əliyevin ölkəmizin ərazi bütövlüyünün bərpası, erməni silahlı birləşmələrinin təxribatının qarşısının alınması, işğaldan azad edilən torpaqlarımızda məskunlaşan minlərlə soydaşımızın təhlükəsizliyinin təmin olunması üçün həyata keçirdiyi siyasəti dəstəklədi. Partiyalar tərəfindən qəbul edilmiş Bəyanatda qeyd edilmişdir ki, Azərbaycan dövlətinin Ermənistana doğru uzanmış sülh əli hər dəfə geri qaytarılmış və bunun qarşılığında rəsmi İrəvan onun dünyadakı məkrli havadarları Azərbaycana qarşı qarayaxma kampaniyasına başlamışdır.

Azərbaycan dövlətinin dəfələrlə üçtərəfli Bəyanatın müddəalarının təmin olunması, sülh müqaviləsinin təxirə salınmadan imzalanması müraciətləri Ermənistan tərəfdən müxtəlif bəhanələrlə rədd edilmişdir.

Qərbi Azərbaycan İcması hər zaman olduğu kimi, öz fəal mövqeyini nümayiş etdirdi və beynəlxalq ictimaiyyəti ədalətə çağırdı. Rəsmi İrəvanı hərbi təxribatlara görə öz bəyanatında qınayan İcma Azərbaycan tərəfinin beynəlxalq hüququn norma və prinsipləri əsasında atdığı ardıcıl addımları Ermənistana sülhü və əmədaşlığı seçmək imkanı yaratdığını bildirmişdir.

**Elxan HÜSEYNOV,**
**Qərbi Azərbaycan İcmasının Ziyalılar Şurasının sədri.**